**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ İXRAC POTENSİALININ STİMULLAŞDIRILMASI MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

| | |
|---|---|
| İxtisas: | 5308.01 - Ümumi iqtisadiyyat |
| Elm sahəsi: | İqtisad elmləri |
| İddiaçı: | **Qalib Nizami oğlu Qafarlı** |

Fəlsəfə doktoru elmi dərəcəsi

almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**GƏNCƏ – 2021**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Dünya iqtisadiyyatı" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Amil Məmmədəli oğlu Məhərrəmov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Elşən Mahmud oğlu Hacızadə**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Vüqar Ağamusa oğlu İsmayılov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Yeganə Əziz qızı Abbasova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, i.e.d, professor,
**Ziyad Əliabbas oğlu Səmədzadə**

___________________

Dissertasiya şurasının elmi katibi: iqtisad üzrə fəlsəfə doktoru, dosent

___________________ **Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor

___________________ **Məhərrəm Cəlal oğlu Hüseynov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dünyada beynəlxalq iqtisadi münasibətlərin qloballaşması ölkələr arasında qarşılıqlı əməkdaşlıq məsələlərinin özünəməxsus qaydalarını ortaya çıxarır. Belə ki, iqtisadi qloballaşmanın sürətlənməkdə olduğu müasir şəraitdə dünya təsərrüfat sisteminə daxil olan ölkələr iqtisadi inkişafa nail olmaq, ölkə əhalisinin tələbatını ödəmək, lazımi texnoloji bilik və avadanlıqlara nail olmaq, müasir istehsal üsullarına əsaslanan təsərrüfatçılıq, reklam, marketinq və mencement təcrübələrini qazanmaq, mübadilə etmək kimi problemlərin həllinə nail olmaq üçün beynəlxalq əmək bölgüsünün üstünlüklərindən yararlanırlar. Bu nöqteyi-nəzərdən hər bir dövlətin, eləcə də Azərbaycan Respublikasının müasir qlobal çağırışlara uyğun dünya iqtisadiyyatına inteqrasiya olunması yolu ilə xarici tiracət əlaqələrinin inkişaf etdirilməsi bazar münasibətlərinə əsaslanan müstəqil iqtisadi sistemin formalaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Həm beynəlxalq iqtisadi nəzəriyyələr, həm də uzun illər boyu dünya ölkələrini əhatə edən təcrübə təsdiq edir ki, heç bir ölkə beynəlxalq ticarət sistemindən kənarda qala bilməz və idxal-ixrac əməliyyatları olmadan milli iqtisadiyyatın inkişafını təmin edə bilməz. Milli iqtisadiyyatın inkişafı ölkənin beynəlxalq əmək bölgüsündə iştirakından, beynəlxalq inteqrasiyanın və iqtisadiyyatın real bölmələrinin ixrac potensialından səmərəli istifadənin effektli təşkilindən birbaşa asılıdır.

Müasir şəraitdə milli iqtisadiyyatın formalaşması və inkişafı yalnız daxili imkanlarla deyil, əhəmiyyətli dərəcədə beynəlxalq ticarət əlaqələrindən daha geniş və səmərəli istifadə edilməsi ilə də mümkündür. Ölkənin beynəlxalq ticarət əlaqələrində iştirakı ona beynəlxalq əmək bölgüsünün yaratdığı iqtisadi və strateji üstünlüklərdən bəhrələnməklə, iqtisadi inkişafın yüksəldilməsi məqsədilə mövcud ixrac potensialının inkişaf etdirilməsi və səmərəli istifadəsinə şərait yaradır və bu istiqamətdə yeni perspektivlər açır.

Elmi ədəbiyyatlarda ixrac potensialına ölkənin iqtisadi potensialının ixrac məqsədilə istifadə oluna bilinən tərkib hissəsi kimi

baxılır. Bu potensiala ixrac üçün əmtəə və xidmət istehsalında, həmçinin onların ixracında istifadə olunan və oluna biləcək təbii-iqtisadi, texniki-iqtisadi, elmi-texniki potensial, xarici ticarət infrastrukturu, əmək ehtiyatları və s. aid edilir.

Qeyd edək ki, ixrac potensialının inkişafına istehsal olunan məhsulların rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, milli ixracı stimullaşdıran şəraitin yaradılması, istehsalda qabaqcıl texnologiyadan istifadə, elm tutumlu məhsul buraxılışının həcminin artırılması, ixracın strukturunun inkişafı və digər amillər hesabına nail olmaq olar.

Bu baxımdan ölkə prezidenti cənab İlham Əliyevin 2016- cı ilin dekabrında təsdiq edilmiş Milli iqtisadiyyat və iqtisadiyyaatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin  və 2021-ci ilin fevralında təsdiq edilmiş “Azərbaycan 2030: sosial- iqtisadi inkişafa dair Milli Prioritetləri”nin qarşıya qoyduğu tələblər də bilavasitə ölkəmizin iqtisadi inkişafının təmin olunması ilə bağlı ixrac imkanlarının genişləndirilməsinin müasir tələblərə uyğun təşkilini öz vacibliyi ilə əsaslandırmaqdadır.

Dünya iqtisadiyyatına inteqrasiya proseslərinin sürətləndirilməsi, xarici iqtisadi əlaqələrin genişləndirilməsi milli iqtisadiyyatımızı dünya iqtisadiyyatının ayrılmaz hissəsinə çevrilməsi işini müvəffəqiyyətlə davam etdirir. Azərbaycanın üstünlüyə malik olduğu sahələrdə ixtisaslaşması, bu bölmələrdə beynəlxalq rəqabətə dözümlü ixrac məhsulları istehsal etməsi, milli iqtisadiyyatın inkişafına xidmət edən xarici ticarət strategiyasının yaradılması müasir dövrün ən əhəmiyyətli problemlərindən birinə çevrilmişdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sədrliyi ilə Yevlaxda qeyri-neft ixracatçılarının respublika müşavirəsində söylədiyi nitqdə qeyd edilir ki, *“Made in Azerbaijan” brendini dünyada tanıtdırmaq üçün praktiki addımlar atılır. Artıq bu brend bu gün dünyada şöhrət qazanır. Əlbəttə ki, dövlət tərəfindən təşkil edilmiş sərgilər və o sərgilərdə sahibkarların iştirakı gözəl nəticələrə gətirib çıxarır. Mənə verilən məlumata görə, bir neçə sərgidə artıq kontraktlar da imzalanmışdır. Əgər biz bu sərgilərdə iştirak etməsəydik, kontraktlar da imzalanmazdı. Yəni, biz gördük ki, sahibkarlara əlavə kömək göstərilməlidir. Mən artıq qeyd etmişəm, kreditlər verilir, fermerlər torpaq vergisindən başqa bütün vergilərdən azaddırlar.*

*Texnika alınır, güzəştli şərtlərlə gübrələr, yanacaq, subsidiyalar verilir. Bütün bunlar qeyri-neft sektorumuzu canlandırdı. Ancaq sahibkarlara əlavə dəstək verilməlidir ki, onlar artıq öz məhsullarını xarici bazarlara çıxarsınlar. Çünki bu, onlara da, dövlətə də lazımdır. Bu, ölkəmizə valyuta gətirir".* Göründüyü kimi, dövlətimizin başçısının müşavirədə söylədiyi nitq ixrac prosesinin və onun stimullaşdırılması istiqamətində dövlət dəstəyi tədbirlərinin əhəmiyyətli olduğuna istiqamətlənmişdir.

Yuxarıda qeyd olunanlar göstərir ki, müasir iqtisadi inteqrasiya şəraitində ölkənin ixrac potensialının tənzimlənməsi probleminin öyrənilməsi, ixrac potensialının səmərəli istifadəsi istiqamətlərinin müəyyən edilməsində olduqca lazımi addımlardır. Bütün bunlar dissertasiya işinin mövzusunun aktuallığını şərtləndirən vacib məsələlərdir.

Dünya bazarında baş verən dəyişikliklər xammal, enerji resurslarına əsaslanan ənənəvi ixracata asılılığın aradan qaldırılmasına istiqamətlənmiş tədbirlərin reallaşmasını zəruri hala çevirmişdir. Bu baxımdan ixracata dövlət dəstəkləri, qeyri-neft sektoruna əsaslanan ixrac potensialının stimullaşdırılması, xarici ticarətin strukturunun diversifikasiyalaşdırılması, bu sahəyə investisiyaların cəlb olunması sahəsində bir sıra elmi-tədqiqat işləri aparılmış, elmi əsərlər və dissertasiyalar yazılmışdır.

Azərbaycanda qeyd olunan problemlərin tədqiqinə həsr olunmuş elmi-tədqiqat işləri arasında Z.Səmədzadə, A.Nadirov, Ə.Nuriyev, M.Meybullayev, B.Ataşov, A.Şəkərəliyev, İ.Abbasov, A.Ələsgərov, D.Vəliyev, İ.Kərimli, G.Gənciyev, A.Məhərrəmov, H.Rüstəmbəyov, R.Həsənov, Ş.Əliyev, H.Aslanov və digər iqtisadçı-alimlərin əsərlərini misal göstərmək olar. Qeyd olunan alimlərin əsərlərində milli iqtisadiyyatın inkişaf amilləri, ixracın strukturunun diversifikasiya olunması və ixrac potensialından səmərəli istifadə problemləri tədqiq olunmuşdur.

Bu sahədə tədqiqat aparan MDB alimlərindən R.Xasbulatov, V.E.Rıbalkin, M.Delyagin, S.V.Prixodko, A.N.Spartak, V.N.Burmistrov, İ.İ.Dyumen, N.N.Yevçenko, M.N.Osmova, N.V.Kovalenko, P.N.Pekutko və digərlərini, Türkiyə Respublikasından olan

alimlərdən H.Seyidoğlu, A.Polat, Ş.Sakarya, K.Arıç və başqalarını göstərmək olar.

İqtisadçıların bu sferada xidmətlərini yüksək qiymətləndirməklə yanaşı onu da qeyd etmək lazımdır ki, ölkələrin, xüsusilə də Azərbaycan Respublikasının xarici ticarət əlaqələri daim inkişaf edir. Bununla belə Azərbaycan Respublikasının idxal-ixrac əməliyyatlarında yaranan yeni meyllərin, müasir çağırışların, həmçinin ölkəmizdə qeyri-neft sektorunda ixracatın dövlət dəstəklənməsi üzrə yaranan problemlərin hər zaman araşdırılmasına ehtiyacı vardır. Həmçinin qeyd etmək lazımdır ki, tədqiqat işində göstərilmiş problemlərin prinsipial yeniliyi və onların həllinin vacibliyi, qeyri-neft sektoru üzrə əsaslı inkişafı qarşıya məqsəd qoymuş Azərbaycan Respublikası üçün həmin sahədə kifayət qədər araşdırmalar aparılmadığına görə, bu problemin həlli yüksək elmi-praktik əhəmiyyət, mövzunun aktuallığını, məqsəd və vəzifələrini müəyyən etmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi dövlətin xarici ticarət əlaqələrinin inkişafında dövlət tənzimlənməsinin nəzəri, praktiki aspektlərinin kompleks tədqiqi əsasında ölkənin ixrac potensialının formalaşdırılması və dəstəklənməsi mexanizminin yaradılması, eləcə də səmərəliliyin təmin olunması istiqamətlərinin müəyyənləşdirilməsi üzrə təklif və tövsiyələrin işlənib-hazırlanmasından ibarətdir.

Bu məqsədə nail olmaq üçün tədqiqat işində aşağıda qeyd olunan vəzifələr qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

- xarici ticarət əlaqələrində ixrac potensialının stimullaşdırılmasının konseptual əsaslarının araşdırılması və müqayisəli təhlili;
- qloballaşma şəraitində beynəlxalq əmək bölgüsündə iştirakın milli iqtisadiyyatın inkişafına təsirinin dəyərləndirilməsi;
- milli iqtisadiyyatın inkişafında ixracata dövlət dəstəyinin nəzəri aspektlərinin öyrənilməsi;
- Azərbaycan Respublikasının xarici ticarət əlaqələrində idxal-ixrac əməliyyatlarının inkişaf dinamikasının sistemli təhlili;
- müasir dövrdə Azərbaycan Respublikasında ixrac potensialının stimullaşdırılmasının qanunvericilik bazasının mövcud vəziyyətinin təhlili;

- Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətinin inkişaf istiqamətlərinin müəyyən edilməsi;
- İxraca dövlət dəstəyinin mexanizmlərinin dəyərləndirilməsi;
- Dövlətin ixrac potensialının stimullaşdırılması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi;
- Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının strukturunun təkmilləşdirilməsi, ixracda hazır məhsulların, idxalda isə daha çox müasir texnologiyalara əsaslanan əmtəələrin xüsusi çəkisinin artırılması imkanlarının aşkarlanması;
- ixracatın stimullaşdırılması ilə bağlı dövlət dəstəyi sisteminin qiymətləndirilməsi və onun təkmilləşdirilməsinin əsaslandırılması;
- Azərbaycanda ixracın dəstəklənməsi mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsi və bu istiqamətlər üzrə elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqatın obyektini** Azərbaycan Respublikasının xarici ticarət əlaqələri və ixracın dəstəklənməsinə yönələn iqtisadi tədbirlər mexanizmlərini təşkil edir.

**Tədqiqatın predmetini** ölkənin ixrac potensialının stimullaşdırılması və onun huquqi əsası, təşkilati-idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi prosesinə aid olan hadisə və proseslər əhatə edir.

**Tədqiqat metodları.** Tədqiqat işinin həyata keçirilməsində sistemli yanaşma, təhlil və sintez, statistik, riyazi təhlil və qruplaşdırma, induksiya və deduksiya və s. metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Dövlətin iqtisadiyyata müdaxiləsinin səbəb və nəticələrinin tədqiqi;
- Xarici ticarət siyasəti üzrə ölkələrin tətbiq etdikləri məhdudlaşdırıcı tədbirlər və onların digər ölkələr tərəfindən tətbiq olunan ixraca dəstək mexanizmləri ilə əlaqəsi;
- Azərbaycan Respublikasının ixrac potensialının mövcud vəziyyəti və onun artırılması imkanları;
- Azərbaycan Respublikasında ixraca dövlət dəstəyinin mövcud vəziyyəti və onların təkmilləşdirilməsi imkanları;
- Milli istehsalın təşviqinin ixrac potensialının stimullaşdırılmasına təsiri imkanlarının tədqiqi;

- İxrac potensialının stimullaşdırılması mexanizmlərinin müqayisəli iqtisadi qiymətləndirilməsi. Burada ixracın stimullaşdırılması üzrə potensial imkanların iqtisadi reallığa çevrilməsi və konkret mexanizmlər üzrə təkliflərin verilməsi də əsas müddəalardandır;

- İxracın stimullaşdırılması sahəsində dünya ölkələrində tətbiq olunan dəstək tədbirlərinin xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

- İxracın dəstəklənməsi mexanizmlərinin təkmilləşdirilməsi prosesində nəzərə alınmalı məqamların öyrənilməsi;

**Tədqiqat işinin elmi yeniliyi** Azərbaycanda ixrac potensialının stimullaşdırılmasında tətbiq olunan dövlət tənzimlənməsi mexanizmlərinin qloballaşma dövrünün reallıqlarına uyğun kompleks yanaşmadan və müasir çağırışların tələblərinə əsasən konkret təkliflərin işlənib hazırlanması və elmi baxımdan əsaslandırılmasından ibarətdir. Tədqiqatın elmi yeniliyini müəyyən edən əsas nəticələr aşağıdakılardır:

- xarici iqtisadi əlaqələrin konseptual əsasları yerli və xarici iqtisadçıların, müxtəlif iqtisadi məktəblərin fərqli yanaşmalarının müqayisəli təhlil edilərək, bu meyllərin xarakterik cəhətləri aşkarlanmışdır;

- ixrac potensialının stimullaşdırılması mexanizmlərinin forma və metodları işlənib hazırlanmışdır;

- Azərbaycan Respublikasında ixraca dövlət dəstəyinin mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə mövcud dünya təcrübəsi nəzərə alınaraq ölkəmizdə tətbiq imkanları üzrə müasir və əlverişli metodlar təklif olunmuşdur;

- Azərbaycanda makroiqtisadi inkişafda ixrac potensialının müasir vəziyyəti təhlil edilmişdir.

- Azərbaycanda qeyri-neft sektoruunda ixracın stimullaşdırılması istiqamətində maliyyə sistemindəki dəyişikliklərin dayanıqlı makroiqtisadi inkişafa təsiri qiymətləndirilmişdir.

- Ölkəmizdə ixrac potensialının artırılmasında dövlət tənzimlənməsi və konkret dövlət dəstəyi mexanizmlərinin istiqamətləri müəyyən edilmişdir.

- Göstərilmişdir ki, ölkəmizdə təsərrüfat subyektlərinin ixracın genişləndirilməsində daha fəal iştirakı etməsi zəruridir. Belə imkanlar o halda təmin oluna bilər ki, bu təsərrüfat subyektləri üçün

ümumi vergi güzəştləri sistemi və onların maliyyə imkanlarının artırılmasına bank-kredit dəstəyinin xüsusi çevik formaları tətbiq edilsin.

- İqtisadiyyatın dayanıqlılığının təmin edilməsində ixrac imkanlarının stimullaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri və onun perspektivləri müəyyən edilmişdir.
- Aparılmış tədqiqat əsasında aşkar edilmişdir ki, Azərbaycan Respublikasında təsərrüfat subyektlərinin maliyyə-kredit imkanlarının genişləndirilməsi ilə əlaqədar, xüsusi halda Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinində və Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə qarşıya qoyulmuş hədəflərin və vəzifələrin icrası çərçivəsində ixracın stimullaşdırılması sisteminin keyfiyyətcə daha təkmilləşdirilməsi həyata keçirilə bilər.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəzəri əsaslarını tədqiq olunan mövzuya aid respublikanın və xarici ölkə iqtisadçılarının elmi əsərlərində təqdim olunmuş fundamental və tətbiqi konsepsiyalar, Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Qanunları, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarları, Mərkəzi icra hakimiyyəti orqanlarının qəbul etdiyi qərarlar, digər normativ hüquqi aktlar, rəsmi sənədlər eyni zamanda müxtəlif dövrlərdə yaşamış iqtisadçıların elmi araşdırmaları və dövrü mətbuatın materialları təşkil edir.

Dövlətin xarici ticarət əməliyyatlarının mühüm tərkib hissəsi olan ixraca dəstək sisteminin təkmilləşdirilməsi sahəsində mövcud problemlərin aşkarlanması və yaranma səbəblərinin öyrənilməsi, eləcə də çevik surətdə aradan qaldırılması ilə bağlı irəli sürülmüş təkliflərin və müasir dünya təcrübəsinin Azərbaycan Respublikasının iqtisadi siyasətinə tətbiqi imkanlarının nəzəri cəhətdən mümkünlüyü dissertasiyada öz əksini tapmışdır. Dissertasiya işinin əsas müddəaları, əldə olunmuş nəticələr, irəli sürülmüş tövsiyyə və təkliflər ixrac potensialının stimullaşdırılması ilə bağlı qanun, qərar və digər normativ aktların hazırlanmasında, elmi-tədqiqat işlərində, həmçinin ali təhsil müəssisələrində tədris prosesində istifadə oluna bilər. Belə ki, tədqiqat işindən BDU-nun Beynəlxalq münasibətlər və

iqtisadiyyat fakültəsinin Dünya iqtisadiyyatı kafedrasında "Dünya iqtisadiyyatı", "Beynəlxalq iqtisadiyyat", "Beynəlxalq valyuta-kredit münasibətləri" və s. fənlərin tədrisində istifadə edilə bilər.

**Tədqiqat işinin aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəaları və tədqiqat işindən irəli gələn təkliflər Azərbaycanda, ölkədən xaricdə baş tutan 4 beynəlxalq, eləcə də 3 respublika səviyyəli konfranslarda məruzə edilmiş və bəyənilmişdir. Həmin konfransların adları aşağıda qeyd olunmuşdur: "Beynəlxalq münasibətlər, milli təhlükəsizlik, geoiqtisadiyyat və geosiyasətin fundamental və tətbiqi problemləri" Universitet səviyyəli elmi-praktiki konfransı, Bakı – 2015. "Инновационные технологии управления социально-экономическим развитием регионов России" VIII Всероссийской научно-практической конференции с международным участием, Уфа – 26 – 27 мая 2016 г. "Sosial, iqtisadi və siyasi sferaların qarşılıqlı təsir problemləri" Respublika elmi-praktiki konfransı, Bakı – 2016. "İslam Həmrəyliyi-2017: reallıqlar və perspektivlər" Respublika elmi-metodik konfransı, Bakı – 2017. "Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri" Beynəlxalq elmi konfrans, Gəncə – 03-04 may 2019-cu il. "17-ci Beynəlxalq Türk Dünyası Sosial Elmlər Konfransı" İstanbul – 2019. "18-ci Beynəlxalq Türk Dünyası Sosial Elmlər Konfransı" İstanbul – 2020.

Dissertasiya işinin əsas mahiyyətini əks etdirən və elmi cəhətdən əsaslandırılmış tövsiyyələr 3 çap vərəqi həcmində dərc olunmuş 9 elmi məqalədə öz əksini tapmışdır. Onlardan 1-i xaricdə dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya Bakı Dövlət Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, 9 yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İşdə 8 cədvəl və 5 şəkil verilmişdir. Dissertasiyada 186 adda ədəbiyyatdan istifadə edilmişdir. Dissertasiyanın strukturunda titul hissə və mündəricat 2 səhifə olub 2472 işarədən, giriş hissə 9 səhifə olub 16577 işarədən, birinci fəsil 44 səhifə olub 83731 işarədən, ikinci fəsil 31 səhifə olub 55488 işarədən, üçüncü fəsil 48 səhifə olub 88731 işarədən, nəticələr 6 səhifə olub 10079 işarədən,

istifadə olunmuş ədəbiyyat siyahısı 15 səhifə olub 30852 işarədən ibarətdir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər və istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 257112 işrarədən ibarətdir. Dissertasiya işi 155 səhifə həcmindədir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, nəzəri-metodoloji əsasları, məlumat mənbələri, elmi yeniliyi, təcrübi əhəmiyyəti, nəticələrin sınaqdan keçirilməsi və istifadə edilməsi və s. öz əksini tapmışdır.

Dissertasiyanın **"Ölkənin ixrac potensialının stimullaşdırılmasının nəzəri metodoloji əsasları və müasir konsepsiyaları"** adlanan I fəslində beynəlxalq ticarətin, eləcə də dövlətin ixrac siyasətinin nəzəri əsasları, ixraca dövlət dəstəyinin funksional mahiyyəti, yaranmasını zəruri edən amillər və onun formaları tədqiq olunmuşdur. Bu fəsildə ixrac potensialının stimullaşdırılması mexanizmlərinin təkmilləşdirilməsinin konseptual əsasları, merkantilizm iqtisadi məktəbindən başlayaraq ən müasir dövr iqtisadçılarının ideyaları əsasında müqayisəli şəkildə araşdırılmışdır.

Qeyd edək ki, tarixən ixrac prosesinin reallaşması həm sahibkarlar həm də dövlət üçün səmərəli olmuşdur. Bu baxımdan da xarici ticarətə dair bütün nəzəriyyələr ixracın inkişafına və ixrac potensialının stimullaşdırılmasına xidmət edir. Hər şeydən əvvəl isə ixrac potensialı anlayışının mahiyyətini izah etmək lazımdır. İxrac potensialı anlayışı ölkə iqtisadiyyatının imkanlardan istifadə nəticəsində ixrac məqsədi ilə istehsalı nəzərdə tutulan, keyfiyyət və rəqabətqabiliyyətliliyinə görə dünya bazarında mövcud tələblərə cavab verən zəruri miqdarda əmtəələr başa düşülür. İxrac potensialı anlayışında iki məqama diqqət yetirmək lazım gəlir: potensial və zəruri məhsul anlayışları. "Potensial" termini fransız dilindən götürülmüş, mənası nəyinsə "ola bilməsini" ifadə edir. Zəruri məhsullar isə elə məhsullar hesab olunur ki, o məhsulların ixrac olunması yerli bazarda tələbin məhdudlaşdırmasına və qiymətlərin artmasına səbəb olmur.

Xarici bazarlara çıxan bütün milli şirkətlər, zəruri əlavə xərclər, qlobal iqtisadiyyatın inkişafındakı əlverişsiz meyllər, qlobal rəqabətin mənfi amilləri və eləcə də son dövrlərdə iqtisadiyyatın dinamizminin azalması səbəbindən əhəmiyyətli çətinliklərlə və şirkətlərin rəqabət mövqelərinin zəifləməsi ilə üzləşirlər. Məhz buna görə də ixraca dövlət dəstəyinin göstərilməsi milli iqtisadiyyat üçün zəruri addım hesab olunur.

Fikrimizcə, dövlət iqtisadi proseslərdə iştirak etməli, şirkətlərin iqtisadi fəaliyyətinin qarantı kimi çıxış etməli və biznesin aparılması üçün hüquqi baza yaratmalı, ədalətli rəqabəti və bütün qurumlar üçün eyni iqtisadi şəraiti təmin etməli, resursların qənaətinə, innovativ inkişafa, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılmasına töhfə verməlidir.

İqtisadi proseslərə dövlət təsirinin bütün formaları ümumiyyətlə iki qrup üzrə təsnifləşdirilir: 1) birbaşa təsir (həm inzibati, həm də iqtisadi tənzimləmə tədbirləri və alətləri ilə həyata keçirilir, xüsusilə standartların işlənməsi, müxtəlif maliyyə mexanizmləri ilə reallaşdırılır) 2) dolayı təsir (milli iqtisadiyyatın inkişafının strateji hədəflərinə uyğun iqtisadi subyektlər üçün sərfəli şərait yaratmaq məqsədilə təsərrüfat tədbirləri və alətləri ilə bağlı qərarların qəbul edilməsini nəzərdə tutur).

Müasir mərhələdə Azərbaycan Respublikasında xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üzrə dövlətin həyata keçirdiyi siyasət ixracın dəstəklənməsi prosesinə yönləndirilmişdir. Qeyd etmək lazımdır ki, 2015-ci ildən etibarən ölkəmizdə tətbiq olunan xarici iqtisadi siyasətin hüquqi bazası müasir tələblərə uyğun olaraq qabaqcıl ölkələrin təcrübəsindən yararlanaraq hazırlanmışdır. Ölkə başçısı tərəfindən imzalanan fərman və sərəncamlar, eləcə də onların icrası məqsədilə hökümətin tətbiq etdiyi ixraca dövlət dəstəyi tədbirləri ölkəmizin ixrac potensialının şaxələndirilməsinə, ixracatda sektorial və coğrafi asılılığın aradan qaldırılmasına hesablanmışdı.

Milli iqtisadiyyatın strateji məqsədlərinə və ölkənin xarici iqtisadi kompleksinin gücləndirilməsinə yönəlmiş xarici iqtisadi fəaliyyətin dövlət tərəfindən tənzimlənməsi dövlətin xarici iqtisadi siyasəti ilə sıx bağlıdır. Xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi Azərbaycan Respublikasının Konstitusiyasına, Milli

Məclisin qəbul etdiyi Qanunlara, Prezidentin Fərman və Sərəncamlarına, normativ sənədlərə, beynəlxalq hüquqa, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həyata keçirilir. Ölkəmizdə xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin əsas prinsiplərinə aiddir:

- xarici ticarət fəaliyyətində iştirakçıların hüquq və mənafelərinin, habelə ölkədə yerli əmtəə və xidmət istehsalçılarının eləcə də istehlakçılarının hüquq və mənafelərinin qorunması;
- xarici ticarətdə iştirakçılara bərabər yanaşma və ayrı-seçkiliyə yol verilməməsi;
- xarici ölkələrlə ticarət əməkdaşlığının qurulması;
- xarici ticarətin dövlət tənzimlənməsi tədbirlərinin seçimi;
- xarici ticarətin dövlət tənzimlənməsi tədbirlərinin hazırlanmasında, qəbul edilməsində və tətbiq edilməsində şəffaflıq və aşkarlıq;
- xarici ticarətin dövlət tənzimlənməsi tədbirlərinin tətbiqinin düzgünlüyü və obyektivliyi.

Azərbaycan Respublikasının xarici iqtisadi siyasəti iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, onun şaxələndirilməsi, investisiya fəaliyyətinin stimullaşdırılmasını təmin etməklə ölkədə və xaricdə layihələrin həyata keçirilməsi üçün investisiya, xarici iqtisadi, sığorta, məsləhət və digər qanuni fəaliyyət növləri, o cümlədən infrastrukturun, innovasiyaların, xüsusi iqtisadi zonaların inkişafı, ətraf mühitin qorunması, "Made in Azerbaijan" (Azərbaycan məhsulu) brendinin ixracının dəstəklənməsi, habelə kiçik və orta sahibkarlığın dəstəklənməsi kimi fəaliyyət sahələrini əhatə edir.

Qeyd edildiyi kimi ixraca dəstək tədbirləri dövlətin xarici iqtisadi siyasətində xüsusi yer tutur, çünki onların əsas məqsədi iqtisadiyyatın strukturuna və onun inkişafına töhfə verməkdir. Bununla yanaşı qeyd etmək lazımdır ki, milli iqtisadiyyata dövlət dəstəyi konsepsiyasının yaranması daha əvvəlki dövrlərə təsadüf edir. Bu baxımdan, ixracatçılara dəstək tədbirləri və bu sahədə uyğun bir milli sistemin qurulması həm inkişaf etmiş ölkələrdə, həm də inkişaf etməkdə olan ölkələrdə iqtisadi inkişaf və biznesin rəqabət üstünlüklərini gücləndirmək, ədalətli rəqabət üçün şərait yaratmaq vasitəsi olmalıdır.

Fikrimizcə, yalnız ixraca dəstək tədbirlərinin tətbiqinin nəticələrini müəyyən etmək və onların təsirlərini hərtərəfli aşkar etmək həqiqətən çətindir, çünki bu nəticələrin formalaşmasına həm daxili, həm də xarici amillərin aktiv təsiri görünməkdədir. Digər tərəfdən, bu hal xarici iqtisadi siyasətin tərkib hissəsi kimi ixracatçılara milli dəstək sisteminin təkmilləşdirilməsi, müvafiq tədbirlərin və mexanizmlərin hazırlanması zamanı daxili və xarici amillərin təcrid edilməsini, təhlilini və maksimum dərəcədə nəzərə alınmasını zəruri edir.

Beynəlxalq təcrübəyə görə, ixraca dövlət dəstəyi iki əsas yolla həyata keçirilir: birincisi, əlverişli makroiqtisadi mühitin yaradılması yolu ilə; ikincisi, milli istehsalçılar və ixracatçılar üçün zəruri olan birbaşa stimullaşdırıcı tədbirlərin reallaşdırılması ilə.

Birinci yola əlbətdə daha çox üstünlük verilir. Çünki bu metod bir çox bazar iqtisadiyyatına malik olan ölkələrin təcrübəsinə və çoxtərəfli əsaslarla əmtəə və xidmətlərin beynəlxalq ticarətinin tənzimlənməsini həyata keçirən beynəlxalq iqtisadi təşkilatlar tərəfindən hazırlanan və istifadə olunan ticarət tənzimlənməsi qaydalarına daha uyğundur. Lakin, keçid dövrü yaşayan ölkələrin şəraitində istehsalçılar, investorlar və ixracatçılar üçün əlverişli mühit yaratmaq məqsədilə tez bir zamanda makroiqtisadi islahatlar aparmaq mümkün deyil. Bu baxımdan, ikinci yol olan ixracın inkişafı üçün birbaşa xüsusi stimullaşdırıcı tədbirlərdən istifadə etmək, onun genişlənməsi problemlərinin həlli üçün təsirli bir vasitə ola bilər. Qeyd etmək lazımdır ki, ixracın stimullaşdırılmasında birbaşa dəstək tədbirləri həm potensial ixracatçıları, həm xarici bazara çıxmağa hazırlaşan şirkətləri, həmçinin də məhsullarını artıq ixrac edən şirkətlərin fəaliyyətinin inkişafı məqsədilə tətbiq olunur.

Cədvəl 1. **Azərbaycan Respublikasında əsas malların ixracının dinamikası** (min ABŞ dolları ilə)

| **Malların adı** | **Məbləği illər üzrə** | | | | |
|---|---|---|---|---|---|
| | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
| **Ümumi ixrac** | **13 457 592,1** | **15 319 977,1** | **19 489 068,2** | **19 635 202,8** | **13 740 567,6** |
| Xam neft | 10 692 835,5 | 12 171 339,3 | 15 710 529,3 | 14 814 132,7 | 9 363 570,7 |
| Təbii qaz | 1 096 683,2 | 1 237 569,4 | 1 512 290,9 | 2 366 833,7 | 2 190 522,1 |
| Təzə meyvə | 243 434,9 | 291 965,9 | 324 780,7 | 361 368,3 | 349 886,2 |
| Təzə tərəvəz | 113 186,6 | 184 207,6 | 202 811,9 | 214 130,2 | 219 968,5 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Qazoyl | 316 275,2 | 241 871,5 | 329 670,8 | 341 605,4 | 213 391,1 |
| Pambıq lifi | 6 039,6 | 32 555,7 | 79 529,9 | 122 365,6 | 131 930,2 |
| Etilen polim. | 81 283,3 | 75 448,5 | 74 365,9 | 69 694,0 | 77 721,4 |
| Alüminium | 49 819,2 | 51 229,3 | 71 438,8 | 84 644,5 | 63 710,3 |
| Kerosin | 78 200,5 | 82 186,8 | 174 556,3 | 111 708,9 | 53 644,4 |
| Şəkər | 62 030,0 | 39 515,1 | 24 974,7 | 26 880,1 | 26 904,3 |

***Mənbə:*** *Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Nəticədə qeyd edə bilərik ki, beynəlxalq mübadilə, xarici iqtisadi fəaliyyət və ixraca dövlət dəstəyi tədbirlərinin reallaşma imkanları baxımından dövlətin rolunun təhlili bir sıra tədbirlərin sistemləşdirilməsinə imkan yaratmışdır. Bütün bunlarla yanaşı isə, hər bir ölkə özü müəyyən etdiyi daxili və xarici ticarət siyasətini həyata keçirir. Digər tərəfdən isə ixraca dəstək sistemlərinin qurulmasında və fəaliyyət göstərməsində isə ticarətə dair nəzəriyyələrin tədqiqi, bu sahədə ölkələrin təcrübəsinin təhlili, qiymətləndirilməsi və sonradan tətbiq olunması milli ixraca dəstək sisteminin təkmilləşdirilməsi zamanı səhvlərdən qorunmağa imkan verməkdədir.

Dissertasiyanın **"Azərbaycan Respublikasının ixrac potensialının müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi"** adlanan II fəslində Azərbaycan Respublikasının ixrac potensialının mövcud vəziyyətinin təhlili, sahələr üzrə ixrac potensialının inkişaf dinamikası və Azərbaycanda dövlət tərəfindən tətbiq olunan ixrac potensialının stimullaşdırılması mexanizmləri tədqiq olunmuşdur.

Cədvəl 1-dən aydın olur ki, ölkəmizin ümumi ixracında son beş il üzrə xam neft və təbii qaz ixracı lider mövqeyə malikdir. 2016-cı ildən Azərbaycanda tətbiq olunan qeyri-neft ixracına dəstək tədbirləri nəticəsində isə bir sıra kənd təsərrüfatı və bəzi yüngül sənaye məhsullarının ixracı artmışdır. Burada təzə meyvə və təzə tərəvəz ixracını misal göstərə bilərik ki, 2016-cı ilə nəzərən 2020-ci ildə müvafiq olaraq 43% və 94% artmışdır. Həmçinin pambıq lifi ixracı 2016-cı ilə nəzərən 2020-ci ildə 21 dəfə artaraq 131,9 milyon ABŞ dolları təşkil etmişdir. Şəkər ixracı isə son illərdə əksinə olaraq aşağı enmiş, belə ki, qeyd olunan məhsulun ixracının həcmi 2020-ci ildə 26,9 milyon ABŞ dolları olmuşdur ki, bu göstərici 2016-cı ildə olan ixracın 42%-ni təşkil etmişdir. Bütün bunlarla yanaşı son dövrlərdə

ölkədə neft və qaz emalını həyata keçirən müəssisələrin müasir standartlara uyğun yenidən qurulması nəticəsində, benzinə və dizelə, eləcə də təbii qaza olan tələbatda idxaldan olan asılılığa son qoyulmuş, həmçinin ölkə xaricinə qazoyl, ağ neft, benzin, etilen polimerləri və neftdən əldə olunan digər məhsullar da ixrac olunmuşdur.

Azərbaycanda 2020-ci ildə qeyri-neft sektoru üzrə ixrac həcmi aşağıdakı kimi olmuşdur. Meyvə və tərəvəzin ixrac həcmi 607,7 milyon dollar, pambıq lifinin həcmi 133,2 milyon dollar, alüminiumun və onlardan hazırlanmış məhsulların həcmi 113,4 milyon dollar, kimya sənayesində istehsal olunmuş məhsullar 85,2 milyon dollar, elektrik enerjisi üzrə ixrac həcmi 59,8 milyon dollar, qara metallar və həmin metallardan hazırlanmış məhsulların həcmi 52,4 milyon dollar, şəkər üzrə ixrac 26,9 milyon dollar, pambıq ipliyi üzrə ixrac 19 milyon dollar, alkoqollu və alkoqolu olmayan içkilərin ixracı isə 12 milyon dollar olmuşdur.

Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin statistik göstəricilərinə diqqət yetirsək görərik ki, 2019-cu ildə qeyri-neft sektoruna məxsus olan məhsul ixracının həcmi 1 954 milyon dollar olmuşdur. Qeyd olunan ildə ixracın həcmi 2018-ci ilə nəzərən 265 milyon dollar, yaxud da 15,7% artmışdır. 2020-ci ildə isə Azərbaycanın qeyri-neft ixracının həcmi 2019-cu ilə nəzərən 2,7% azalaraq 1,9 milyar ABŞ dolları olmuşdur. 2020-ci il üzrə qeyri-neft məhsullarının ixrac olunduğu əsas ölkələr arasında ilk yeri 691 milyon dollarla Rusiya Federasiyası tutmuşdur. Daha sonra isə həmin növ məhsul ixracında fərqlənən digər ölkələr Türkiyə (377,8 milyon dollar), İsveçrə (224,8 milyon dollar), Gürcüstan (127,6 milyon dollar) və Çin (44,5 milyon dollar) olmuşdur. Faiz göstəricilərinə diqqət yetirsək, görərik ki, 2019-cu ilə nisbətdə 2020-ci ildə qeyri-neft sektoru məhsullarının ixracı Rusiya Federasiyasına 0,1%, İsveçrəyə 25,5%, və Çinə 19,3% həcmində artmış, Türkiyəyə 5,9%, Gürcüstana 19,7% azalmışdır.

Ümumilikdə Azərbaycanda milli istehsalın və ixracın dəstəklənməsi məqsədilə bir sıra qurumlar yaradılmışdır. Həmin qurumlara aiddir: İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO), "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi, Sahibkarlığın inkişafı fondu, Kiçik

və orta biznesin inkişafı agentliyi, Azərbaycan İnvestisiya Şirkəti, Aqrar Kredit və İnkişaf Agentliyi, “Aqrolizinq” ASC, İnnovasiyalar Agentliyi, Azexport.az portalı.

Qeyd olunan qurumların vasitəsilə ölkəmizdə ixraca tətbiq dövlət dəstəyinin formalarını iki qrup üzrə təsnifləşdirmək olar: maliyyə və qeyri-maliyyə tədbirləri. Azərbaycan Respublikasında tətbiq olunan ixraca dövlət dəstəyinin maliyyə mexanizmlərinə aiddir: ixrac təşviqləri, tədqiqat inkişaf proqramlarına yardım, alıcı missiyaları, ixrac missiyaları, bazar araşdırmasına dəstək, milli brendin ixracına dövlət dəstəyi, beynəlxalq sertifikatların alınmasına dövlət dəstəyi, azad iqtisadi zonaların yaradılması, güzəştli kredit sisteminin tətbiqi.

Həmçinin ölkəmizdə ixraca dövlət dəstəyinin qeyri-maliyyə mexanizmləri arasında qeyd edə bilərik: ticarət nümayəndələrinin təyin olunması, ticarət evlərinin yaradılması, milli istehsal məhsullarının vahid məlumat bazasının yaradılması, ixraca dəstək məqsədilə “Bir Pəncərə” sisteminin tətbiqi, milli valyutanın dəyərinin aşağı salınması (devalvasiya), logistika mərkəzlərinin yaradılmasına dəstəyin göstərilməsi.

İşin ikinci fəslində Azərbaycan Respublikasının ixrac potensialının mövcud vəziyyətinin təhlili və inkişaf dinamikası öyrənilmiş, ixraca dövlət dəstəyi mexanizmləri qeyd edilmişdir. Qeyd edək ki, ölkənin ixrac potensialının sahələr üzrə tədqiqi, ixraca dəstək mexanizmlərinin təkmilləşdirilməsində xüsusi əhəmiyyət kəsb edir. Məhz bu baxımdan da ölkəmizin ixrac imkanlarını təhlil edərkən Azərbaycanda ixrac potensialına malik bəzi sahələrdə xüsusi ixrac dəstəyi tədbirlərinin tətbiq olunması haqqında konkret qənaətə gəlinmişdir.

Cədvəl 2. **Ölkələr üzrə ixracatçılara orta və uzunmüddətli dövlət maliyyə dəstəyinin həcmi** (milyard ABŞ dollar ilə)

| № | Ölkələr | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Çin | 35,0 | 45,0 | 40,6 | 58,0 | 51 | 34,3 | 36,3 | 39,1 | 33,5 | 18 |
| 2 | Fransa | 15,9 | 13,0 | 9,5 | 8,3 | 7,6 | 9,4 | 6,8 | 8,9 | 6,2 | 12,1 |
| 3 | Almaniya | 16,7 | 15,3 | 22,6 | 14,2 | 15,9 | 9,7 | 7,0 | 12,0 | 10,5 | 8,6 |
| 4 | İtaliya | 8,0 | 5,2 | 5,4 | 5,9 | 5,4 | 10,3 | 8,9 | 12,4 | 11,1 | 8,4 |
| 5 | C.Koreya | 9.8 | 22.6 | 14.8 | 14,4 | 9,5 | 7,4 | 7,9 | 10.6 | 5,8 | 5,0 |
| 6 | Birləşmiş Krallıq | 4,2 | 2,9 | 3,9 | 3,0 | 1,3 | 3,9 | 2,1 | 2,4 | 6,6 | 3,4 |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 7 | Hindistan | 13,0 | 10,6 | 5,1 | 4,5 | 4,4 | 6,2 | 9,7 | 7,6 | 7,0 | 2,3 |
| 8 | Kanada | 1,9 | 1,7 | 1,9 | 1,8 | 2,2 | 2,1 | 1,9 | 1,6 | 2,0 | 2,2 |
| 9 | ABŞ | 21.4 | 31.3 | 14,5 | 12,1 | 5,8 | 0,2 | 0,2 | 0,3 | 5,3 | 1,8 |
| 10 | Yaponiya | 5,9 | 4,4 | 2,1 | 5,6 | 4,4 | 1,6 | 2,0 | 1,3 | 3,6 | 0,9 |
| 11 | Braziliya | 4,8 | 2,7 | 4,1 | 1,3 | 4,2 | 3,0 | 1,6 | 2,9 | 0,3 | 0,01 |

***Mənbə:*** *Cədvəl ABŞ İxrac-İdxal Bankının Konqresə təqdim etdiyi 2010-2020-ci illər üzrə Hesabatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Dissertasiyanın **“Azərbaycan Respublikasının ixrac potensialının stimullaşdırılmasının təkmilləşdirilməsi istiqamətləri”** adlanan III fəslində dövlətin ixrac potensialının stimullaşdırılmasının təkmilləşdirilməsi sahəsində beynəlxalq təcrübə öyrənilmiş, milli istehsalın və ixracın dövlət həvəsləndirmə sisteminin formalaşdırılması istiqamətləri və onun inkişaf perspektivləri, həmçinin Azərbaycan Respublikasında ixrac potensialının stimullaşdırılması mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi yolları müəyyən edilmişdir.

Dissertasiyada bir sıra ölkələrdə ixraca dövlət dəstəyini həyata keçirən qurumların rəsmi məlumatları əsasında ixracın stimullaşdırılması modelləri öyrənilmiş və ölkəmizdə müvafiq sahələr üzrə fəaliyyət göstərən qurumlar arasında paralellər aparılmışdır. Belə ki tədqiqat zamanı ABŞ-ın, Almaniyanın, Yaponiyanın, Fransanın, Birləşmiş Krallığın, İtaliyanın və Kanadanın ixraca dövlət dəstəyi təcrübəsi öyrənilmişdir. Ümumiyyətlə dissertasiyada 10-dan artıq dövlətin 20-dən artıq ixraca dövlət dəstəyi verən təşkilatları haqqında müxtəlif məlumatlar verilmişdir.

Cədvəl 2-dən də aydın olduğu kimi inkişaf etmiş ölkələr ixracata maliyyə dəstəyi baxımından dünyada lider mövqelərdə olmasına baxmayaraq, Çin Xalq Respublikası həmin sahədə son illər inamla birinci yeri tutur. Cənubi Koreya, Hindistan və Braziliya isə yüksək inkişaf etmiş ölkələrlə müqayisə edilə biləcək səviyyədə öz milli ixracatçılarına maliyyə vəsaitləri ilə dəstək göstərirlər.

Cədvəl 3. **Ölkələr üzrə ixracatçılar üçün qısamüddətli ixrac kreditlərinə sığorta ödənişinin həcmi** (milyard ABŞ dolları ilə)

| **№** | **Ölkələr** | **İxrac Kredit Agentliyi** | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
|---|---|---|---|---|---|---|---|
| **1** | Çin | Sinosure | 363,9 | 375,2 | 412,8 | 481,40 | 481,40 |
| **2** | Cənubi Korea | K-sure | 136,5 | 124,7 | 114,63 | 121,99 | 120,25 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **3** | Yaponiya | NEXI | 52,9 | 52,9 | 49,08 | 49,84 | 49,84 |
| **4** | Kanada | EDC | 58,1 | 60,5 | 43,96 | 43,64 | 44,27 |
| **5** | Hindistan | ECGC | 47,6 | 39,8 | 39,80 | 30,90 | 30,90 |
| **6** | Rusiya | EXIAR | 4,3 | 8,2 | 11,39 | 15,43 | 16,63 |
| **7** | Almaniya | EULER HERMES | 12,2 | 12,0 | 10,96 | 11,06 | 11,10 |
| **8** | ABŞ | U.S. EXIM | 4,8 | 3,7 | 2,81 | 2,39 | 2,02 |
| **9** | İtaliya | SACE | 1,9 | 2,2 | 0,61 | 1,05 | 1,14 |
| **10** | Birləşmiş Krallıq | UKEF | 0,1 | 0,6 | 0,16 | 0,05 | 0,02 |
| **11** | Brazliya | ABGF | 0,0 | 0,2 | 0,01 | 0,00 | 0,00 |
| **12** | Fransa | BPIFrance | 0,0 | 0,0 | 0,00 | 0,00 | 0,00 |

***Mənbə:*** *Cədvəl ABŞ İxrac-İdxal Bankının Kongresə təqdim etdiyi 2015-2019-cu illər üzrə Hesabatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Qeyd edək ki, qabaqcıl ölkələrin təcrübələrinin öyrənilməsi və həmin ölkələr üzrə ixracatçılara göstərilən kredit, sığorta xidmətləri sahəsində dövlət dəstəyi tədbirlərinin həcmi ona deməyə əsas verir ki, dünya ixracında lider olan ölkələr ixracatçılara ən çox dəstək göstərən ölkələrdir. Həmçinin cədvəl 2-yə diqqət yetirsək görərik ki, dünya üzrə ixracatçılara orta və uzunmüddətli dövlət maliyyə dəstəyinin həcminə görə fərqlənən ölkələr məhz yüksək inkişaf etmiş ölkələrdir. Bu baxımdan İEÖ-də tətbiq olunan bütün bu dəstəkləyici tədbirlər milli iqtisadiyyatını inkişaf etdirmək, idxaldan asılılığını azaltmaq və ixracını stimullaşdırmaq istəyən ölkələr üçün, eləcə də Azərbaycan Respublikası üçün lazımi örnək hesab oluna bilər.

Cədvəl 3-dən də göründüyü kimi Çin Xalq Respublikası ixracatçılara orta və uzun müddətli maliyyə dəstəyinin göstərilməsində lider mövqeyə malik olduğu kimi qısamüddətli ixrac kreditlərinə sığorta ödənişinin verilməsində də birinci yerdə dayanır. Belə ki, Çində 2019-cu il üzrə qısamüddətli ixrac kreditlərinə sığorta ödənişinin həcmi 481,4 milyard ABŞ dolları təşkil etmişdir. Koreya Respublikası isə qeyd olunan göstərici üzrə ABŞ və Qərbi Avropanın yüksək inkişaf etmiş ölkələrini qabaqlayaraq 120,25 milyard ABŞ dolları ilə ikinci sırada mövqelənmişdir. Hindistan da qısamüddətli ixrac kreditlərinə sığorta ödənişi üzrə 30,9 milyard ABŞ dolları ilə ABŞ, İtaliya və Birləşmiş Krallıq kimi yüksək inkişaf səviyyəsinə malik ölkələri qabaqlamışdır. Diqqət çəkən digər bir amil Fransanın 2019-cu ildə ixracatçılara orta və uzunmüddətli maliyyə dəstəyinin göstərilməsində 6,2 milyard ABŞ dolları ayırmasına baxmayaraq

həmin ildə ixracatçılar üçün qısamüddətli ixrac kreditlərinə sığorta ödənişi xidməti göstərməmişdir.

Şəkil 1-ə əsasən "Global Trade Alert"-in məlumatları təsdiq edir ki, qlobal maliyyə və iqtisadi böhranın başlanğıcından etibarən proteksionist tədbirlərin sayında, əsasən də qeyri-tarif xarakterli – kvota, lisenziyalaşdırma, texniki uyğunluq, məhsul təhlükəsizliyi tələbləri və digərlərində kəskin artım qeydə alınıb.

Oxşar nəticələr UNCTAD mütəxəssisləri tərəfindən də verilmişdir. UNCTAD-a görə 1995-ci ildən bu günə qədər texniki tənzimləmə tədbirləri, inzibati və gömrük prosedurlarının tətbiqi də daxil olmaqla, tarif olmayan maneələrin istifadəsində təxminən otuz qat artım müşahidə edilmişdir.




***Mənbə:*** *Şəkil Qlobal Ticarət Həyəcanı (Global Trade Alerts) təşkilatının statistik məlumatları əsasında müəllif tərəfindən qurulmuşdur.*

Şəkil 1. Qlobal maliyyə böhranının başladığı dövrdən etibarən dünya üzrə dövlətlərin xarici ticarətdə tətbiq etdikləri proteksionist və liberal yönümlü tədbirlərin sayı.

Dünya ölkələri üzrə tətbiq olunan bütün bu proteksionist tədbirlərin fonunda Azərbaycanda mövcud olan milli ixraca dəstək sisteminin modeli ixracatçıların səmərəli müdafiəsini və onların xarici bazarlarda rəqabət qabiliyyətini tam şəkildə təmin etmək iqtidarında deyil. Bu baxımdan hazırda Azərbaycan dövlətinin qarşısında duran mürəkkəb məsələlərdən biri ölkənin inkişaf strategiyası və

beynəlxalq təşkilatların tələbləri nəzərə alınmaqla, yerli şirkətlərin ixracına dəstək sistemini qısa müddətdə təkmilləşdirməkdir.

Aparılan araşdırmalara əsasən, xarici ölkələrdə, eləcə də Azərbaycanda milli ixracın dəstəklənməsi üzrə sistemlərin fəaliyyətinin qiymətləndirilməsini nəzərə almaqla deyə bilərik ki, bu sahədə gələcəkdə aparılacaq təkmilləşdirmə zamanı aşağıda qeyd olunan konseptual elementlər nəzərə alına bilər:

- sistemin mikro və makro səviyyələrinin xüsusiyyətlərini nəzərə almaq;
- ixracatçı şirkətlərin mövcud ixraca dəstək mexanizmlərinə bərabər çıxışını təmin etmək;
- yerli rəqabət qabiliyyətli məhsulların istehsalının stimullaşdırılması üsullarını tətbiq etmək;
- ixracata qeyri-maliyyə dəstək tədbirlərini təkmilləşdirmək;
- ixracatçılara maliyyə dəstəyi tədbirlərinin miqyasının genişləndirən zaman beynəlxalq iqtisadi təşkilatların tövsiyələrini nəzərə almaq.

Müəllif tərəfindən xarici ölkələrin ixracın inkişafı sahəsində mükəmməl təcrübələrini həmçinin beynəlxalq təşkilatların tövsiyələrini nəzərə alaraq, Azərbaycanda mövcud sistemin təkmilləşdirilməsi üçün aşağıdakı təkliflər irəli sürülmüşdür:

- Dövlət-özəl tərəfdaşlıq təcrübəsi vasitəsilə kiçik və orta sahibkarlığın dəstəklənməsi.
- İxrac edən müəssisələrin bir neçə qrupa ayrılması: ixrac potensialı kimi ixracdan əvvəlki mərhələdə olan müəssisələr, dünya bazarlarına giriş mərhələsində olan müəssisələr, ixracatçı müəssisələrin yaradılması və bununla da müəssisələrin beynəlmiləlləşmə dərəcəsindən asılı olaraq onlara müvafiq dəstəyin göstərilməsi.
- İxracatçı subyektlərə yardımların göstərilməsi zamanı onların bilavasitə ehtiyaclarının nəzərə alınması.
- İxracatçıları dəstəkləmək üçün birbaşa dəstək tədbirlərinin və metodlarının təkmilləşdirilməsi, icazə verilən bütün vasitələrin əsasında işlənib hazırlanmış yeni maliyyə məhsullarının yaradılması. Xüsusilə kiçik və orta biznes subyektləri üçün kreditləşmə, kreditlər

üzrə faizlərin ödənilməsi, lizinq və s., onların əlçatanlığının təmin edilməsi.

Deyilənləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, hazırda Azərbaycan Respublikasının qarşısında strateji yol xəritəsi və sosial-iqtisadi inkişafın milli prioritetlərinə uyğun olaraq xarici ticarət sahəsində bir vəzifə durur. Bu vəzifə Azərbaycan ixracatçılarının dəstəklənməsi və dünya bazarlarında onların rəqabət qabiliyyətinin artırılması üçün bütün tədbirlərdən və vasitələrdən ibarət kompleks ixrac infrastrukturuna əsaslanan milli ixraca dəstək sisteminin təkmilləşdirilməsidir. Bu vəzifənin müvəffəqiyyətlə yerinə yetirilməsi gələcəkdə Azərbaycan Respublikasının dünya iqtisadi sisteminə inteqrasiya oluna biləcəyini və ölkəmizin rəqabətqabiliyyətli məhsullarla dünya bazarına çıxma imkanlarını təmin edəcəkdir.

## NƏTİCƏLƏR

Dissertasiyada bir çox mühüm tədqiqatlar, təhlil, araşdırma və qiymətləndirmələr aparılmışdır. Tədqiqat işində Azərbaycan Respublikasının ixrac potensialının stimullaşdırılması mexanizmlərinin təkmilləşdirilməsindən aşağıdakı nəticələr əldə olunmuşdur :

- Ölkədə beynəlxalq mübadilənin inkişafında dövlətin roluna dair müxtəlif iqtisadi məktəblərin və onların nəzəri baxışlarının təkamülünün təhlili nəticəsində bu qənaətə gəlmək olar ki, dövlət bazar iqtisadiyyatında təsərrüfat subyektlərinin iqtisadi fəaliyyətinin təminatçısı kimi çıxış etməli, onların fəaliyyətinin normativ-hüquqi bazasını formalaşdırmalı, ədalətli rəqabəti təmin etməklə təsərrüfat şəraitini balanslaşdırmalıdır. Belə ki, dövlətin xarici iqtisadi fəaliyyətə təsir tədbirləri və vasitələrinin tətbiqi milli ixracatçıların dünya bazarındakı rəqabət mövqeyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi qeyri-sabitliyin yaratdığı disbalansın aradan qaldırılmasına yönəldilməlidir.
- Müstəqilliyin ilk illərindən etibarən xarici iqtisadi fəaliyyətdə dövlətin dəyişən rolu ilə əlaqəli problemlərin tədqiqi göstərdi ki, ölkədə xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üçün bazar prinsiplərinə keçidin çətinliklərinə baxmayaraq, milli ixraca dəstək

sisteminin əsaslarını formalaşdırmadan rəqabətqabiliyyətliliyin artırılması mümkünsüz olardı.

- Ölkəmizin ixrac potensialının araşdırılması belə qənaətə gəlməyə əsas verir ki, ölkədə qeyri-neft məhsulları üzrə potensial ixrac imkanlarının mövcudluğu qeyd olunan sahələrə dövlət dəstəyinin göstərilməsini zəruri etmişdir. Eyni zamanda yüksək texnoloji məhsul ixracına dövlət dəstəyinin təmin olunması isə gələcəkdə dünya bazarı üçün rəqabətqabiliyyətinə malik məhsul istehsalına imkan verəcəkdir.

- Tədqiqat gedişində aparılan təhlillər "ixraca dövlət dəstəyi" kateqoriyasının dərindən aydınlaşdırılmasına imkan vermişdir və müəyyən edilmişdir ki, ixraca dövlət dəstəyi sistemi milli şirkətlərin beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin gücləndirilməsinə, milli biznesin maraqlarını xarici bazarlarda daha yaxşı tanıdılmasına və şirkətlərin dünya bazarlarından pay alması üçün hərəkətə keçməsinə şərait yaradır. Onu da qeyd etmək olar ki, ixraca dövlət dəstəyi yüksək texnoloji istehsalın, eləcə də dövlətin innovativ inkişafına töhfə verir.

- Aparılan tədqiqatlar əsasında sübut edilmişdir ki, qlobal qeyri-sabitlik şəraitində ixracı dəstəkləyən ümumi tədbirlər sistemində beynəlxalq kommersiya əməliyyatlarına aid risklərin azaldılması məqsədilə onların qiymətləndirilməsi olduqca zəruridir.

- Azərbaycanda qəbul edilən konseptual və strateji sənədlərin həyata keçirilməsi təsərrüfat subyektlərinin ixracın stimullaşdırılması prosesində daha fəal iştirakı üçün yeni fəaliyyət imkanları açır. Bu isə müasir şəraitdə dayanıqlı iqtisadi inkişafın, həmçinin ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında vacib bir fəaliyyət sahəsi kimi çıxış edir.

- İxraca dəstək tədbirlərinin tətbiqi sahəsində dünya təcrübəsi öyrənilərək onun qiymətləndirilməsi inkişaf etmiş ölkələrdə milli ixraca dəstək sistemlərinin təşkilinin bir neçə mövcud növünü müəyyən eməyə imkan vermiş və onların ölkəmizdə tətbiqi imkanlarına da diqqət yetirilmişdir.

- Aparılan təhlillər göstərdi ki, ölkələr üçün ümumi cəhət ondan ibarətdir ki, dünya konyukturasının dəyişməsinə demək olar ki, bütün ölkələr tez və çevik surətdə reaksiya verir, həmçinin ölkələr bu

sahədə istifadə olunan mexanizmlərin iqtisadi səmərəliliyinə üstünlük verirlər. Eyni zamanda qeyd etmək lazımdır ki, dünya iqtisadiyyatının qeyri-sabitliyi artdıqca dövlətlərin ixraca dəstək göstərən qurumları bu sahədə təklif etdikləri xidmətlərin siyahısını genişləndirirlər.

- Ölkədə iqtisadi inkişaf üzrə aparılan təhlil və qiymətləndirmələr müəyyən müddəaları irəli sürməyə imkan verir: iqtisadi inkişafda son on ildə artım meylləri baş versə də, bu daha çox neft və qaz məhsullarının ixracı hesabına baş vermişdir; iqtisadi inkişafda qeyri-neft sektorunun rolunun artırılması zərurətdən irəli gəlir və bu baxımdan müvafiq sektora aid məhsulların ixracının genişləndirilməsi üçün daha əlverişli şəraitin və mühitin yaradılması vacibdir. Qeyd olunan sahənin inkişafında stimullaşdırma tədbirlərinin istifadəsinin dövlət proqramları və layihələri ilə bağlılığının təmin edilməsi önəmlidir və bununla əlaqədar müvafiq islahatların dərinləşdirilməsi əhəmiyyətlidir.

- İnkişaf etmiş ölkələrin təcrübəsində dövlət tərəfindən kiçik və orta sahibkarlara xarici iri şirkətlər və ticarət ittifaqları ilə ticarət əlaqələri, istehsal zəncirləri qurmaq üçün lazımi şərait yaradılır. Azərbaycanda isə bu təcrübənin tətbiqi uzunmüddətli perspektivdə ölkə iqtisadiyyatının ixrac yönümlü sektorlarına xarici sərmayənin cəlb edilməsinə əsaslı təsir göstərə bilər.

- Məlumdur ki, indiki dövrdə respublikamızda yüksək texnologiyalı məhsulların istehsalında maliyyələşmə həcminin artırılmasına ehtiyac vardır. Bu məqsədlə milli sahibkarların ucuz maliyyə resurslarına çıxışını təmin etmək, ixrac əməliyyatlarını kreditləşdirmək, habelə bu fəaliyyət sahələrinə zəmanət vermək üçün daha əlverişli iqlimi yaratmaq zəruridir.

- Dünya bazarlarında Azərbaycan məhsullarına qarşı tətbiq edilən satış əngəllərinin və məhdudiyyətlərinin aşkar olunması sisteminin yaradılması zəruridir. Bu prosesə mütəxəssislərin, ekspertlərin və müvafiq sahədə ixtisaslaşan ixracatçıların cəlb edilməsi bu əngəllərin müəyyən edilməsi və aradan qaldırılması sahəsində vacib addım ola bilər.

- Azərbaycanda ixracatçı şəxslərin xaricdəki təmsilçilərinin mövcud tələbatlarının ödənilməsi və milli iqtisadiyyata xarici

sərmayenin cəlb edilməsi vəzifəsinin yerinə yetirilməsi üçün ölkəmizin xarici səfirliklərində fəaliyyət göstərən ticarət nümayəndəliklərinin işinin optimallaşdırılması və təkmilləşdirilməsi vacibdir. Bu məqsədlə xaricdəki ixracatçılara dəstək üçün təsirli vasitələrin yaradılması, kontragentlərin axtarışı, informasiya dəstəyinin verilməsi, əməliyyatların tərtib edilməsinə yardım göstərilməsi və digər xidmətlər milli ixracın inkişafı üçün əhəmiyyətli ola bilər.

- Ölkəmizdə iqtisadiyyatın dayanıqlılığının təmin olunmasında ixrac imkanlarının stimullaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi təsərrüfat subyektlərinin ixracın genişləndirilməsində daha fəal iştirakını təmin edər. Bu, o halda daha yüksək nəticə verə bilər ki, həmin subyektlər üçün ümumi vergi güzəştləri sistemi və onların maliyyə imkanlarının artırılmasına bank-kredit dəstəyinin daha çevik formalarının tətbiqi təmin edilsin.

- Kiçik və orta biznes üçün əlverişli anti-inhisar mühitinin yaradılması vacibdir. Bu məqsədlə inzibati və gömrük prosedurlarının sadələşdirilməsinə, əlverişli infrastrukturun inkişafı ilə, başqa sözlə, logistika, nəqliyyat, telekommunikasiya, energetika ilə bağlı sahələrin təkmilləşdirilməsinə, daxili və xarici ticarət üçün vacib olan digər infrastruktur sahələrinin, o cümlədən sınaq laboratoriyalarının, sertifikatlaşdırma mərkəzlərinin və s. formalaşması zəruridir.

- Təhlillər onu göstərir ki, bəzi firmalarda mütəxəssis kadrların yoxluğu firmanın ixrac imtiyazlarından yararlanmamasına səbəb olur. Bu məqsədlə ixraca dövlət dəstəyi çərçivəsində təlim və məsləhət xidmətlərinin göstərilməsi, eləcə də mütəxəssislərin müəyyən müddət ərzində ixracatçı firmalarda fəaliyyət göstərməsi məqsədilə zəruri xərclərin dövlət tərəfindən çəkilməsi bu istiqamətdə səmərəli ola bilər. Kadr və mütəxəssis heyətinin bilik və təcrübəsinin artırılması həm dövlətçilik, həm də sosial-iqtisadi inkişafla bağlı qarşıya qoyulmuş vəzifələrin icrası baxımından mühüm əhəmiyyət kəsb edər.

- Beləliklə, qeyd olunanları yekunlaşdıraraq belə bir nəticəyə gəlmək olar ki, Azərbaycanın ixrac potensialının stimullaşdırılması xarici ticarətin səmərəliliyinin artmasına, müsbət xarici ticarət balansının formalaşmasına, tədiyyə balansının tarazlılığının təmin

olunmasına, bütövlükdə idxal-ixrac əməliyyatlarının səmərəliliyinin yüksəlməsinə səbəb olacaqdır. Bu da son nəticədə ölkədə sosial-iqtisadi inkişafın yüksəlməsinə, dövlətin və cəmiyyətin tələblərinin ödənilməsinə imkan verəcəkdir.

Dissertasiya işində aparılan tədqiqat üzrə yuxarıda qeyd edilən nəticələrə əsaslanaraq aşağıdakı təklifləri irəli sürə bilərik:

- Fikrimizcə, Azərbaycanda ixracata dəstək sisteminin daha da təkmilləşdirilməsi üçün istifadə olunacaq modeldə iqtisadiyyatın mikro və makro səviyyələrinin xüsusiyyətləri eləcə də onların vacib elementləri nəzərə alınmalıdır. Belə ki, ixracatçı şirkətlərin mövcud dəstək tədbirlərinə bərabər səviyyədə çıxışı təmin olunmalı, maliyyə və qeyri-maliyyə tədbirlərinin daha da təkmilləşdirilməsi ixrac yönümlü kiçik və orta sahibkarlığa dəstək tədbirlərinin göstərilməsi üçün güzəştli şərait daha da inkişaf etdirilməlidir.

- Azərbaycanda milli istehsalı və ixracı dəstəkləmək məqsədilə dövlət tərəfindən çoxsaylı stimullaşdırıcı mexanizmlərdən istifadə olunur. Həmin tədbirlərin həyata keçirilməsi məqsədilə ayrı-ayrı mərkəzi icra hakimiyyəti orqanları və banklar da daxil olmaqla bir çox qurumlara müvafiq səlahiyyət verilmişdir. Ancaq bununla yanaşı həmin qurumlar arasında vahid kordinasiyanın yaradılmasına böyük ehtiyac vardır. Bu baxımdan ixraca dəstək prosesi çoxşaxəli sistemi əhatə etdiyi üçün vahid idarəetmə bu sahədə daha da müsbət nəticələrin əldə olunmasına səbəb ola bilər.

- Azərbaycanda ixrac potensialına malik kiçik və orta biznes üçün vahid dəstək sisteminin kompleks proqramının hazırlanmasına və formalaşmasına ehtiyac duyulur.

- Azərbaycanda ixracatçıları dəstəkləmək məqsədilə birbaşa dəstək tədbirlərinin və metodlarının təkmilləşdirilməsi, icazə (lisenziya) verilən bütün vasitələr əsasında işlənib hazırlanmış yeni maliyyə imkanlarının yaradılması vacibdir.

- Aparılan tədqiqatlar göstərir ki, ixraca dövlət dəstəyinin vacib cəhətlərindən biri Ekzimbanklar vasitəsilə ixraca yardım göstərməkdir. Bu baxımdan ölkələr potensial ixracatçı olan yerli sahibkarların kreditlər vasitəsilə maliyyələşdirilməsini və ixracın daha da diversifikasiya olunmasını, eləcə də xarici ölkələrin hüquqi şəxslərini öz ölkələrindən məhsul almalarını stimullaşdırmaq qabiliyyətinə

malikdir. Ölkəmizdə də ixracatçılara sərfəli bank və kredit xidmətlərinin göstərilməsi məqsədilə dövlət tərəfindən Ekzimbank kimi maliyyə qurumlarının yaradılması bu kontekstdə əsas dəstək tədbiri kimi həyata keçirilə bilər.

- Azərbaycanda ixraca dövlət dəstəyi sisteminin təkmilləşdirilməsi prosesində atılmalı olan addımlardan biri də ixrac sığorta agentliyinin yaradılmasıdır. Fikrimizcə, bu qurum vasitəsilə dövlət ixracatçı birliklərin fəaliyyətini genişləndirmək məqsədilə onların götürdükləri kreditlərin sığortalanmasını, eləcə də xarici alıcıların borc müqabilində aldıqları məhsullara dair ixrac müqavilələrinin sığortalanması xidmətlərini reallaşdıra bilər.

- Covid-19 pandemiyasının ölkəmizin ixracına təsirlərini azaltmaq üçün ixrac potensialına malik sahələrdə ixracatçı subyektlərə əlavə maliyyə və sığorta dəstəyi göstərilməlidir.

- İxrac fəaliyyətinə tətbiq olunan stimullaşdırma tədbirləri təkcə ixrac prosesi reallaşan dövrdən sonra deyil, həmçinin istehsal və satış prosesinə qədərki dövrdə də həyata keçirilməlidir. Bu stimullaşdırma tədbirləri firmanın istehsal, keyfiyyət və standart göstəricilərini yüksəltməli, brendləşmə prosesini sürətləndirməli, əmtəə və xidmətlərin təkmilləşdirilməsinə və modernləşməsinə istiqamətlənən tələblərə cavab verməli, tədqiqat və inkişaf proqramlarını, həmçinin məşğulluq siyasətini dəstəkləməlidir.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:**


1. Dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində vergi planlaşdırmasının rolu. Beynəlxalq hüquq və inteqrasiya problemləri. – 2015. – № 3(43). S. 199-202.

2. Müasir dövrdə Azərbaycanda səmərəli bazar mühitinin yaradilmasinda dövlətin həyata keçirdiyi iqtisadi funksiyalarin əhəmiyyəti. Beynəlxalq münasibətlər, milli təhlükəsizlik, geoiqtisadiyyat və geosiyasətin fundamental və tətbiqi problemləri. Universitet səviyyəli elmi-praktiki konfransının materialları. Bakı – 2015. S. 416-420.

3. Инновационное мышление как современная необходимость в управлении экономикой. Инновационные технологии управления социально-экономическим развитием регионов России. VIII Всероссийской научно-практической конференции с международным участием. Уфа – 26 – 27 мая 2016 г. С.183-185.

4. Ölkənin ixrac potensialının stimullaşdırılmasına dair bəzi nəzəri baxşılar. Beynəlxalq hüquq və inteqrasiya problemləri. – 2016. № 1(45). S. 64-70.

5. Dövlətin vergi siyasətinin, ixracın stimullaşdırılmasına təsiri məsələləri. Sosial, iqtisadi və siyasi sferaların qarşılıqlı təsir problemləri. Respublika səviyyəli elmi-praktiki konfransının materialları. Bakı – 2016. S. 276-280.

6. Экспортный потенциал Азербайджана и его стимулирование в современный период. Современная наука: актуальные проблемы теории и практики. Серия: Экономика и Право. – 2017. - № 5. С. 76-80

7. İslam ölkələrinin iqtisadi əməkdaşlığı. İslam Həmrəyliyi-2017: reallıqlar və perspektivlər. Respublika elmi-metodik konfransının materialları. Bakı – 2017. S. 321-322.

8. Vergi mexanizminin ixrac potensialının stimullaşdırılmasında rolu. Statistika xəbərləri. – 2017. № 3. S. 22-28.

9. Brend imicinin ixracın stimullaşdırılmasına təsiri məsələləri. Turizm və qonaqpərvərlik tədqiqatları. – 2017. № 2. S. 66-81.

10. Azərbaycan Respublikasının ixrac imkanları və ixrac potensialının stimullaşdırılmasının bəzi aspektləri. Audit jurnalı. Cild 18, № 4, 2017. s.88-96.

11. Milli istehsalın və ixracın dövlət həvəsləndirmə sisteminin formalaşdırılması istiqamətləri və onun inkişaf perspektivləri. Bakı Universitetinin xəbərləri. Sosial-siyasi elmlər seriyası. – 2018. №1. s. 51-59.

12. Azərbaycanda ixracın stimullaşdırılmasına yönəldilən dövlət siyasətinin müasir istiqamətləri. Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri. Beynəlxalq elmi konfrans, 03-04 may 2019-cu il. Gəncə - 2019. s. 184-188

13. İhracata devlet desteğinin modern yöntemleri. 17-ci Beynəlxalq Türk Dünyası Sosial Elmlər Konfransı. İstanbul – 2019. s. 47-50.

14. İxracata dövlət dəstəyi sisteminin formalaşdırılmasında beynəlxalq təcrübə. 18-ci Beynəlxalq Türk Dünyası Sosial Elmlər Konfransı. İstanbul – 2020. s. 301-312.

15. Features and directıons of improvement of state support mechanisms for exports in the post-crisis period. Scientific reviews of Azerbaijan State University of Economics. Year 8, Volume 8, July-September 2020. p. 40-56.

16. İxracata dövlət dəstəyi sistemində müasir trendlər və aktual məsələlər. İpək yolu. – 2020. №4. s. 61-71.

Dissertasiyanın müdafiəsi “22” sentyabr 2021-ci il tarixində, saat 14.00-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Atatürk prospekti 450, AZ 2000, Gəncə şəhəri, Azərbaycan

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 16 avqust 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 09.08.2021
Kağızın formatı: (210x297) ¼
Həcm: 45645 işarə
Tiraj: 100+